Demokratik Təşəbbüslər İnstitutu

IDI

Institute for Democratic Initiatives

# AZƏRBAYCANDA LGBTI+ HÜQUQLARI

## HESABAT



Bakı 2019

# İÇİNDƏKİLƏR

QISA İCMAL ..... 2

İSTIFADƏ OLUNAN TERMİNLƏR ..... 3

GİRİŞ ..... 5

I Fəsil - Cinsi oriyentasiya və gender kimliyinə görə ayrı-seçkiliyinin qadağan olunması ilə əlaqədar hazırki vəziyyət ..... 7

1.1 Ümumi hüquqi çərçivə ..... 7

1.2 Birləşmək və toplaşmaq azadlığı ..... 9

1.3 İfadə azadlığı ..... 10

1.4 Təhsil hüququ ..... 11

1.5 Məşğulluq ..... 14

1.6 Cinsiyyət dəyişdirmə əməliyyatı və şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ..... 15

1.7 Hərbi xidmət ..... 18

1.8 Ailə institutu və "Kaming aut" ..... 19

II FƏSİL - Praktikadakı hadisələr və beynəlxalq təşkilatların tövsiyələri ..... 22

2.1 İsa Şahmarlının intiharı ..... 22

2.2 Sentyabr 2017-ci il reydləri (kollektiv həbslər) ..... 23

2.3 Aprel 2018-ci il reydləri ..... 25

2.4 Beynəlxalq təşkilatların tövsiyələri ..... 25

NƏTİCƏ ..... 28

TÖVSİYƏLƏR ..... 29

## QISA İCMAL

Azərbaycan Respublikasında LGBTI+ fərdlərinin hüquq və azadlıqları uzun illərdir ki, ciddi təhdid altındadır. Lezbiyan, Gey, Biseksual, Trans və İnterseks Assosasiyasının (ILGA) 2019-cu ilin may ayında açıqladığı məlumata görə Azərbaycan Avropada LGBTI+ fərdlərinin həyat şəraiti və hüquqlarının ən pis vəziyyətdə olduğu ölkədir. Belə ki, yalnız 3 faiz LGBTI+ hüquqlarının təmin olunduğu Azərbaycan 49 Avropa ölkəsinin sıralandığı siyahıda 49-cu yerdə qərarlaşmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 2015-ci ildən bu yana bu siyahıda ən sonuncu yerdədir.

Son dörd ildə ölkədə LGBTI+ hüquqlarının vəziyyətindəki bu geriləməyə bir çox amillər səbəb olub. Bunlara, vətəndaşların siyasi hüquq və azadlıqlarına qarşı törədilən repressiyaların bu şəxslərin hüquqlarına da ciddi təsir görməsi, qüvvədə olan qanunvericilikdəki bir çox boşluqlar, öz genderi və yaxud cinsi oriyentasiyası səbəbilə istismar edilən, hüquqları pozulan həssas qrupların cəmiyyətin dəstəyindən və hüquqi yardımından uzaq qalması, maarifləndirmə fəaliyyətlərindəki çatışmazlıqlar və LGBTI+ fərdlərinə yardım məqsədilə qurulan qeyri-hökümət təşkilatlarının davamlı təqibi kimi amillər daxil edilə bilər.

Xüsusilə, 2017- ci ildə aparılan kütləvi reydlər Azərbaycanda LGBTI+ hüquqlarına çox böyük zərbə vurdu. Hüquq-mühafizə orqanlarının həyata keçirdiyi kütləvi reydlər zamanı məlumatlara əsasən ən azı 200 nəfər həbs olundu. Bununla da ölkədə LGBTI+ cəmiyyəti dövlətin ağır təqib və təzyiqlərinə məruz qaldı və hələ də qalmağa davam edir.

Demokratik Təşəbbüslər İnstitutunun (İDİ) ekspertlər qrupu mövzunun aktuallığını nəzərə alaraq, əhatəli hesabat hazırlayıb. Hesabatda bu sahədə olan problemlər, mövcud qanunvericilikdəki və praktikadakı çatışmazlıqlar və problemin həllinə dair təkliflər yer alıb.

# İSTIFADƏ OLUNAN TERMİNLƏR

**LGBTI+** – Lesbian, Gay, Biseksual, Transseksual, İnterseksual və digər şəxslər. Bu abreviatura ümumilikdə oriyentasiyası fəqlənən digər bütün şəxsləri ifadə etmək üçün istifadə olunub.

**Heteroseksuallıq** – fərdin əks cinsə qarşı duyduğu romantik hisslər və cinsəl maraq.

**Homoseksuallıq** – fərdin öz cinsinə qarşı duyduğu romantik hisslər və ya eynicinslilər arasında yaşanan romantika, eşq və ya cinsi əlaqə.

**Homofobiya** – Homoseksuallığa qarşı səbəbsiz nifrət, qəzəb və ya dözümsüzlük.

**Transfobiya** – Transseksual fərdlərə qarşı səbəbsiz nifrət, qəzəb və ya dözümsüzlük.

**Geylik** – Kişi cinsindən olan bir fərdin öz həmcinsinə qarşı duyğusal və ya cinsəl maraq duyması.

**Lesbianlıq** – Qadın cinsindən olan bir fərdin öz həmcinsinə qarşı duyğusal və ya cinsəl maraq duyması.

**Biseksuallıq** – fərdin həm həmcinsinə, həm də qarşı cinsə qarşı duyduğu romantik hisslər, eşq və cinsəl maraq.

**Panseksuallıq** – bütün cinsi orientasiyadan və gender kimliyindən asılı olmayaraq, istənilən insana qarşı romantik duyğular və cinsi istək.

**Transeksuallıq** – özünü qarşı cinsdən hiss edən, qarşı cinsə bənzəmə istəyi duyan və ya özünü qarşı cinsdən biriymiş kimi hissedən şəxslərə verilən ad.

**İnterseksuallıq** – həm qadın, həm də kişi cinsiyət xüsusiyətlərinə sahib olan insanların vəziyyəti. İnsterseksual fərd içində həm kişi, həm də qadın özəllikləri daşıya bilər və hər iki cinsə qarşı romantik və seksual hisslər hiss edə bilər.

**Genderqueer və ya qeyri-binar** – maskulin və ya feminen gender rollarına uyğun gəlməyən bütün gender kimliklərini özündə birləşdirən ifadə. Qeyri binar insanlar özlərini bəzən qadın, bəzən kişi kimi, bəzən isə heç nə hiss etmirlər.

**Çisgender** – fərdlərin doğuşdan sahib olduqları bioloji cinslə gender kimlikləri üst-üstə düşməsi.

**Gender disforiya** – fərdin öz qadın və ya kişi gender statusunu qəbul edə bilməməsi, öz bədənində kəskin daxili narahatlığı.

**Kaminq aut** – Cinsi oriyentasiyanı və gender kimliyini ailəyə, yaxınlarına və ətrafa açılma prosesi.

# GİRİŞ

Azərbaycan Respublikası əsasən müsəlman əhalinin üstünlük təşkil etdiyi dünyəvi dövlətdir. Azərbaycan Respublikasının Konstitutsiyasının 25-ci maddəsi hər kəsin qanun və məhkəmə qarşısında bərarliyinə təminat verir[1]. Lakin Azərbaycanda hazırda lesbian, gay, biseksual, transseksual və İnterseksual (LGBTI+) şəxslər bir çox problemlərlə üzləşirlər.

2019-cı ilin may ayında Beynəlxalq Lezbiyan, Gey, Biseksual, Trans və İnterseks Assosasiyası (ILGA Europe) Azərbaycanda LGBTI+ fərdləri üçün "hüquqi müdafiənin tamamilə mümkünsüzlüyü"nü göstərərək, ölkəni LGBTI+ üzvləri üçün həyat standartı baxımından Avropa ölkələri içərisində ən axırıncı ölkə kimi qeyd edib[2].

Ötən illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) İnsan Haqları Komitəsi (İHK)[3] və Universal Dövri İcmal[4] (UDİ) sessiyaları ərzində bir çox üzv dövlətlər cinsi oriyentasiya və gender kimliyinə görə ayrı-seçkiliyin qadağan olunması hüququnun vəziyyəti haqqında öz narahatlıqlarını və tövsiyələrini ifadə ediblər.

Təqdim olunan hesabatın təməl məqsədi hazırda ölkədəki gender kimliyinə və cinsi oriyentasiyaya görə ayrı-seçkiliyinin qadağan olunması ilə əlaqədar hazırkı vəziyyətin izah olunmasıdır. Hesabat iki fəsildən ibarətdir. İlk fəsil cinsi oriyentasiyaya və gender kimliyinə görə ayrı-seçkiliyinin qadağan olunması ilə əlaqədar ölkədəki hazırkı vəziyyəti, ikinci fəsil isə praktikadakı hadisələri və bununla bağlı olan beynəlxalq təşkilatların tövsiyələri əhatə edir. Ümumilikdə isə hesabatda mövcud hüquqi çərçivə və təməl hüquq və azadlıqlar və onların praktikadakı vəziyyəti hazırda ölkədə yaşayan LGBTI+ fərdlərindən alınan müsahibələr əsasında göstərilib. Sonda isə mövcud problemlərin həll olunması üçün mümkün tövsiyələr verilib.

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, maddə 25 ,http://www.e-qanun.az/framework/897

[2] https://www.ilga-europe.org/sites/default/files/Attachments/rainbowmap2019online_0_0.pdf

[3]http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CCPR%2fC%2fAZE%2fCO%2f4&Lang=en

[4] http://unazerbaijan.org/wp-content/uploads/2018/12/Universal-D%C3%B6vri-%C4%B0cmal_-Az%C9%99rbaycan-2018.pdf

## METODOLOGİYA

Təqdim olunan hesabat Azərbaycan Respublikasının qanunlvericiliyinin şərhinə, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq Konvensiyalara, yerli və beynəlxalq təşkilatların hesabatlarına əsaslanır.

Araşdırma dövründə əvvəlcədən müəyyən edilmiş standartlar əsasında daxili qanunvericiliyin və medianın monitorinqi aparılıb. Azərbaycandakı LGBTI+ icması ilə əlaqə yaradılıb. Bu sahədə fəaliyyət göstərən hüquq müdafiəçilərindən habelə 11 nəfər LGBTI+ fərdindən ətraflı müsahibə alınıb. Əldə olunan məlumatların dəqiqləşdirilməsi üçün 30 nəfər şəxs ilə sosial şəbəkələr vasitəsilə əlaqə saxlanılıb, sorğular alınıb. Müsahiblərin bir qismi ilə sosial şəbəkələr, digər qismiylə isə şəxsi tanışlıqlar vasitəsilə çatmaq mümkün olub. Eyni zamanda hesabatda "Nəfəs LGBTI+ Azərbaycan Alyansı", "Minority Azərbaycan" və " Rəngarəng Azərbaycan" kimi böyük LGBTI+ səhifələrinin müsahibələrin, məlumatlarından istifadə olunub. Məlumatların dəqiqləşdirilməsi üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə və Statistika Komitəsinə sorğular göndərilməsinə baxmayaraq, onlardan mütənasib cavablar almaq mümkün olmayıb.

# I FƏSİL

## Cinsi oriyentasiya və gender kimliyinə görə ayrı-seçkiliyinin qadağan olunması ilə əlaqədar hazırki vəziyyət

### 1.1 Ümumi hüquqi çərçivə

Ümumi bərabərlik prinsipi Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində göstərilib. Həmin maddənin birinci hissəsinə əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir. Bu maddənin 3-cü hissəsi hər kəsə öz hüquq və azadlıqlarınını irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bərabər qaydada həyata keçirmək imkanı verir[5]. Eyni zamanda Konsitutsiyanın 12-ci maddəsinə əsasən Konstitutsiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Azərbaycan Respublikası 13 avqust 1992-ci ildə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı, 25 dekabr 2001-ci ildə isə İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasını ratfikasiya edib. Həmin beynəlxalq müqavilələrin müvafiq olaraq 26 və 14-cü maddələri ayrı-seçkiliyi müəyyən əsaslara görə qadağan etmişdir. Paktın 26-cı maddəsi ayrı-seçkiliyin bütün növləri qanunla qadağan edir və istənilən əlamətə - irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verir[6].

Avropa Konvensiyasının 14-cü maddəsi isə Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadəni cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin edir[7]. Göründüyü kimi, beynəlxalq müqavilələrdə Azərbaycan Respublikasının Konstitutsiyasında olduğu kimi “cinsi oriyentasiya yaxud gender kimliyi” ayrı-seçkilik əsası kimi birbaşa olaraq göstərilməyib. Lakin Konstitusiyadan fərqli olaraq, həmin

---

[5] Azərbaycan Respublikasının Konstitusiyası, maddə 25 http://www.e-qanun.az/framework/897
[6]Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, maddə 26, https://www.migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf
[7] İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası, maddə 14 https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf

müddəaların geniş təfsirinə yol açan "**və ya hər hansı digər əlamət**" ifadəsi işlənib. Məhz buna görə də həm BMT-nin İnsan Haqlar Komitəsi[8], həm də Avropa İnsan Haqları Məhkəməsi[9] bir çox işdə cinsi oriyentasiyaya, yaxud gender kimliyinə əsaslanan ayrı-seçkiliyin Paktın 26-cı, Konvensiyanın 14-cü maddəsinin " **digər əsaslar**" başlığı altında qadağan olunduğunu bildirib. Bu baxımdan, hesab edilə bilər ki, Konstitutsiyanın 25-ci maddəsinin 3-cü hissəsi beynəlxalq müqavilələrə nisbətdə daha məhdud şəkildə təsbit olunub və indiki vəziyyətdə şəxsləri cinsi oriyentasiya, yaxud gender kimliyinə əsaslanan diskriminasiyadan tam şəkildə qoruya bilmir. Buna görə də LGBTI+ fərdlərinin hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq etmək üçün (maddə 12) bu müddəaya **"və digər əsaslar"** ifadəsi də əlavə edilməlidir.

Azərbaycan Respublikasında 2006-cı ilin oktyabr ayında isə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun qüvvəyə minib. Qanunda gender əsaslı ayrı-seçkiliyi seksual qısnama da daxil olmaqla, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük kimi müəyyənləşdirir. Ancaq qanunda ayrı-seçkiliyin ümumi tərifi yoxdur. Ümumi bərabərlik prinsipi digər Azərbaycan qanunvericiliyində, o cümlədən mülki, cinayət, cinayət prosesi, əmək və ailə hüququ ilə müəyyən edilir. Cinsi oriyentasiya, yaxud gender kimliyinə əsaslanan diskriminasiyanın qadağan olunması isə qanunvericilikdə ümumiyyətlə nəzərdə tutulmayıb. Eyni zamanda Qanunun 2.0.1-ci bəndinə əsasən, *gender dedikdə, ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti başa düşülür*[10].

Aydın olaraq görünür ki, bu qanunun məqsədləri üçün gender termini hələ də kişi və qadın cinsləri və onların arasındakı münasibətlərin sosial cəhəti ilə məhdudlaşdırılıb.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində isə homofobiya və ya transfobiya ilə bağlı törədilən nifrət cinayətləri ilə bağlı heç bir müddəa yoxdur. Məcəllənin 283-cü maddəsi yalnız milli, irqi, sosial və ya dini nifrət zəminində törədilən əməlləri cinayət hesab edir. Beləliklə, hazırda bu hal cinayəti ağırlaşdıran hal kimi cinayət qanunvericiyinin diqqətindən

---

[8]İnsan Haqları Komitəsi, Toonen Avstraliyaya qarşı işi, Kommunikasiya №488/1992, BMT Dok MSHBP/ C/50/D/488/92 (1992); İnsan Haqları Komitəsi, Young Avstraliyaya qarşı işi, Kommunikasiya №. 941/2000, BMT Dok MSHBP/ C/78/D/941/2000 (2003). Manfred Nowak, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı: MSHBP Kommentariya (2005), səh 623.

[9] Salgueirdo da Silva Mouta Portuqaliyaya qarşı, Ərizə № 33290/96; Christine Godwin Böyül Britaniyaya qarşı, Ərizə № no 28957/95

[10] Azərbaycan Respublikasının "Gender Bərabərliyinin Təminatları haqqında" Qanununu, Maddə 2.0.1 http://www.e-qanun.az/framework/12424

kənardadır[11]. Eyni zamanda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin statistikasında "nifrət cinayətləri" deyə bir təsnifat aparılmır, onların qeydiyyatı yoxdur və bununla bağlı rəsmi məlumatlar əldə etmək qeyri-mümkündür.

Razılaşma yoluyla cinsi əlaqədə olma yaşı heteroseksual və homoseksuallar üçün bərabərdir və qanunda 16 yaş hesab olunur. 2000-ci ildə eyni cinsilər arasında (xüsusilə kişilər) cinsi əlaqəni qadağan edən qanun maddəsi isə qüvvədən düşmüşdür.

LGBTI+ hüquqları ilə əlaqədar heç bir milli strategiya planı indiyədək ümümdövlət səviyyəsində qəbul edilməyib. Bərabərliyi təmin etmək üçün hər hansı bir dövlət orqanı da yaradılmayıb.

## 1.2 Birləşmək və toplaşmaq azadlığı

Azərbaycan Respublikasında hər kəsin birləşmək və toplaşmaq azadlığı Konstitutsiya tərəfindən təmin olunur. Amma bu təminat praktikada digər şəxslərdə olduğu kimi, LGBTI+ fərdlərinə də aid edilmir. Ümumiyyətlə, Azərbaycan Respublikasında siyasi hüquqların həyata keçirilməsi problematik bir məsələdir və mövcud rejim sistemli şəkildə şəxslərin birləşmək və toplaşmaq azadlığının həyata keçirilməsinə süni manələr yaradır. Bununla bağlı xüsusi bir hüquqi iş yoxdur, lakin mövcud vəziyyətdən də görünür ki, birbaşa və yaxud dolayı yollarla LGBTI+ hüquqları ilə məşğul olan təşkilatlar və yaxud individuallar daima təqib olunurlar.

LGBTI+ fərdlərinin toplaşmaq hüququ **"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu**[12] ilə tənzminlənir. Həmin Qanunun 2(2) bəndində təsbit olunan bərabərlik hüququ isə birbaşa olaraq cinsi oriyentasiya və gender kimliyinə görə ayrı-seçkiliyin qadağan olunmasını özündə əks etdirmir.

Dinc toplaşma azadlığı ilə bərabər, Azərbaycanda LGBTI+ fərdlərinin birləşmək azadlığı da tam təmin olunmur. Hazırda Azərbaycanda qeydiyyatdan keçmiş heç bir LGBTI+ qeyri-hökumət təşkilatı fəaliyyət göstərmir. Bu mövzuda yeganə fəaliyyət göstərən təşkilat "Nəfəs LGBTI+ Azərbaycan Alyansı"dır ki, o da qeydiyyat üçün iki dəfə Ədliyyə Nazirliyinə müraciət etməsinə baxmayaraq, mənfi cavablar alıb. 2015-ci ildə "Nəfəs LGBTI+ Azərbaycan Alyansı" tərəfindən Azərbaycanda LGBTI+ fərdlərinin əsas hüquqlarının pozulması haqqında

---

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, http://www.e-qanun.az/code/11

[11] http://hatecrime.osce.org/azerbaijan?year=2017#

[12] "Sərbəst Toplaşmaq Azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu http://www.e-qanun.az/framework/3229

maarifləndirmə məqsədilə həyata keçirilməsi planlanan “Bərabərlik üçün Yarış” marafonu rəsmi icazə ala bilməyib[13].

Bu məsələyə fokus olmaq istəyən təşkilatlar adətən buna QİÇS (AİDS) məsələləri üzərindən yanaşmağa meyl edirlər. Bu mənada fəaliyyət göstərə bilən yeganə təşkilat “Gender və Tərəqqi” qeyri-hökumət təşkilatıdır ki, bu təşkilat cinsi azlıqların sağlamlığı üçün fəaliyyət göstərərək yanlız tibbi yardım göstərir, QİÇS (AİDS) virusu ilə bağlı xüsusilə transseksual fərdlər arasında maarifləndirmə fəaliyyətini həyata keçirir. Bununla belə, LGBTI+ fərdlərinin hüquqlarının müdafiəsindən danışdığımız zaman, bu QHT də istisna edilməlidir. Çünki təşkilat birbaşa olaraq hüquq müdafiəsi ilə məşğul olmur.

### 1.3 İfadə azadlığı

Azərbaycan qanunvericiliyində LGBTI+ fərdlərinin ifadə azadlığına mane olan hər hansı bir müddəa və yaxud qanun yoxdur. Lakin bu hüququn həyata keçirilməsində bir çox problemlər mövcuddur.

2015-ci ilin Oktyabr ayında, Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov verdiyi bir müsahibəsində televiziya kanallarından birini “*sanki normal bir şey imiş kimi, homoseksuallığı nümayiş etdirdiyinə görə*” tənqid edib.[14]

Sovet İttifaqının dağılmasından sonra müharibə zamanı bir azərbaycanlı və erməni gay arasındakı eşq hekayəsindən bəhs edən "Artuş və Zaur" romanını nəşr edən yazar Ələkbər Əliyev Azərbaycan polisi tərəfindən buna görə təqib olundu. 2009-cu ilin mart ayında polis həmin kitabın paytaxtın böyük kitabçılarından birinin rəfindən çıxarılmasını əmr etdi. Bundan başqa, müəllif və oxucular arasında kitabın ictimai müzakirələri isə təhdidlərlə qorxu altında ləğv edildi[15].

Azərbaycanda LGBTI+ mövzulu ilk bloq olan “www.freeLGBTI+.com” 2012-ci ildə dövlət qeydiyyat olmadan fəaliyyət göstərən Azad LGBTI+ Təşkilatı tərəfindən yaradılmışdır.

---

[13] https://www.nefesLGBTI+.org/arasdirma-az%C9%99rbaycanda-LGBTI+i-f%C9%99rdl%C9%99r%C9%99-qarsi-repressiyalar-v%C9%99-s%C9%99b%C9%99bl%C9%99ri/
[14] https://www.ilga-europe.org/sites/default/files/2016/azerbaijan.pdf
[15] https://az.sputniknews.ru/culture/20090310/42767196.html

Təşkilat rəhbərlərinin sözlərinə görə hökumət LGBTI+ adlı təşkilatı qeydiyyata almadığına görə bu cür ad seçilmişdir. Hazırda isə bloq fəaliyyət göstərmir.

Bundan əlavə 1414 istifadəçisi olan “gay.az” saytı da mövcuddur. Onun yaradıcısı Ruslan Baluhin bildirir ki, bu yaxınlarda öyrəndiyinə görə, Azərbaycanda gey tematikalı domenlərin qeydiyyatı qadağandır.

“*Domen adlarının .az (online.az) zonasında qeydiyyatı üzrə texniki dəstək mərkəzində Gay.Az saytına bildiriblər ki, domenin adı Azərbaycanda .az milli domeninin administratoru olan IntraNS şirkəti tərəfindən qara siyahıya salınıb. Sonra da IntraNS və Rabitə Nazirliyi ilə araşdırma olsa da heç bir nəticə vermədi – məmurlar ancaq “bir-birinə eyham vurmaqla” kifayətləndilər*”[16]

Eyni zamanda son illərdə Azərbaycanda LGBTI+ üzvləri üçün nəzərdə tutulmuş ilk kütləvi informasiya vasitəsi olan “Minorty” jurnalı nəşr olunmağa başlayıb və hələ də fəaliyyətinin davam etdirir[17].

## 1.4 Təhsil hüququ

Təhsil hüququ Azərbaycan Republikasının Konstitutsiyası, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu[18], təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlarla və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Təhsil haqqında qanun cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa bərabər təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat versə də, cinsi orientasiya və gender kimliyi onun əsaslarından biri kimi qeyd olunmayıb.

Cinsi təhsil məktəblərdə kurrikulumun tərkib hissəsi deyil. Tədris materiallarında LGBTI+ ilə bağlı məlumatlar və həyat bacarıqları öz əksini tapmayıb. LGBTI+ fərdləri ilə müsahibələrə əsasən, lap uşaqlıqdan özləri barədə fərqliliklərin olduqlarını hiss etsələr də, buna

[16] https://jam-news.net/avropanin-%C9%99n-homofob-olk%C9%99sind%C9%99-geyl%C9%99r-nec%C9%99-sag-qala-bil%C9%99r/?lang=az-AZ
[17] https://minorityaze.org/
[18] Təhsil haqqında Azərbaycan Respublikasının qanunu, http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm#_edn16

heç bir zaman ad verə bilməyiblər. Məktəb də daxil olmaqla, heç bir yerdə LGBTI+ haqqında eşitməməkləri onlarda daxili narahatçılıqlara, özünəqapanmaya, özünü digərlərindən təcrid etməyə gətirir ki, bütün bunlar isə ağır depressiyalara və bir çox hallarda sui-qəsdə səbəb olur. Müsahiblərin böyük qismi məktəb dövrlərində 1 və ya 2 dəfə intihara cəhd etdiklərini vurğulayıblar.

**"***Məktəb dövrlərimdə özümə qapanıq idim. Otaqdan günlərlə elə vaxt olurdu ki, çıxmırdım, səbəbini də başa düşmürdüm ki, niyə çıxmıram, niyə həyatə düşmək istəmirəm. Bu barədə heç kimlə bölüşməmişə, amma həmişə dışlanmışam". (A.İ. transgender* oğlan*)*[19]

*"Məktəb dönəmimdə kimliyimlə bağlı problemlər yaşamışam, lakin həmin vaxtlar transgender olduğumu dərk etmirdim. Mənimlə eyni cinsdə doğulan cisgender insanlarla hər zaman ünsiyyət problemlərim olub və hər zaman yanlış anlaşılmağımla nəticələnib" (İ.H. transgender)*[20].

Beynəlxalq araşdırmalara əsasən, LGBTI+ şagirdlə təhsil müəssislərində öz yaşıdları ilə müqayisədə daha çox ayrı-seçkiliyə, qısnamaya məruz qalır. Qısnama özünü bir neçə formada biruzə verə bilər, fiziki, şifahi, sosial, psixoloji və kiber qısnama. LGBTI+ şagirdlərin qarşı istifadə olunan şifahi aqressiya və homofobik dil qısnamanın ən çox yayılmış formalarıdır. Xüsusilə feminin oğlanlar daha çox homofob adlandırılmalara məruz qalırlar.

*"Məktəbdə uşaqlar tərəfindən mənə çox təzyiq olunurdu. Fikrimcə, valideynlərin uşaqlarını ərköyün, düzgün böyütməməklərinə görə uşaqlar çox daha qəddar olurlar, yeniyetmələrə və böyüklərə nisbətən. Mənim məktəb vaxtlarım çox böyük depressiya ilə keçib. Özümə həmişə suallar verirdim ki, insanlar niyə bu qədər qəddar olmalıdırlar, niyə görə bu cür şeylər olur. Mən o vaxtlar həmişə evdən çıxanda dua edirdim ki, bu gün heç kim mənə sataşmasın" . (U.T., homoseksual oğlan)*[21]

Təhsil sahəsində LGBTI+ şagirdlərinə münasibətdə ayrı-seçkiliyin və qısnamanın qarşısını almaq üçün mövcud qanunlar və tədris müəssisələrinin ayrı-seçkiliyinin önlənməsinə yönəlmiş daxili nizamlama qaydaları olmadığına görə, ayrı-seçkilik halları dayanmadan artır.

---

[19] LGBTI+ fərdi ilə müsahibə, https://dignityandgender.wordpress.com/2019/01/02/beyin-gucuml%C9%99-menstruasiyami-saxlamisam/

[20] LGBTI+ fərdi ilə müsahibə, 18 aprel

[21]LGBTI+ fərdi ilə müsahibə, https://dignityandgender.wordpress.com/2019/02/25/olma-s%C9%99n-xosb%C9%99xt-olma-qoy-valideynl%C9%99rin-xosb%C9%99xt-olsun/

LGBTI+ barəsində məlumatların olmaması, yanlış təsəvvürlərin mövcudluğuna görə, LGBTI+ şagirdlərinin həmyaşıdları ilə yanaşı, bəzən müəllimləri də bu prosesdə birbaşa iştirak edir.

*"Əlbəttə, məktəbdə çox qısnamaya məruz qalmışam. Çox yaxın hesab etdiyim qız dostum var idi. Ona etiraf etmişdim. Lakin o mənim ona açdığın bu sirri bütün məktəb arasında yaydı. Çoxu inanmadı, amma inanlar mənə söz atmağa, ələ salmağa başladılar. Hətta bəziləri müəllimlərə xəbər vermişdi. Lakin müəllimlər məni təhdit edərək psixoloqun yanına getməyə məcbur etdilər. Müəllimlərim məni ailəmə xəbər verməklə təhdid edirdilər". (Y.L. biseksual qız)*[22]

*"Daha çox məktəbdə sıxışdırılmışam. Buna görə də oranı cəhənnəm adlandırıram. Misal üçün, rahat sinifdən çıxıb, məktəb yeməkxanasına gedə bilmirdim. Mütləq yeniyetmələrdən kimsə səni təhqir edəcək, ünvanına nalayiq sözlər işlədəcək ("Ə, petux", "peti", "bura bax az" kimi sözlər). Hardasa 9-cu sinifdə oxuyanda buna çox kəskin reaksiya verirdim, gah direktora, gah da sinif rəhbərinə şikayət edirdim"(Z.A. Homokessual oğlan)*[23].

Eyni zamanda, Təhsil Nazirliyinin təhsil müəssisələrində LGBTI+ icmasına məxsus şagird və tələbələrə psixoloji yardımın göstərilməsi, psixoloqların bilik və bacarıqların artırılması yönündə hər hansı təlim proqramları mövcud deyil. Tədris müəssislərinin psixoloqları tərəfindən yanlış yönləndirmənin nəticəsi olaraq, LGBTI+ şagirdlərinin gender disforiya və daxili narahatçılıqları daha da artır.

*Müəllimlərimdən biri mənə dedi ki, istəmirsənsə söhbət harasa çatsın, psixoloqun yanına düş. Mən psixoloqa hər şeyi etiraf etdim. Lakin o məni çox ağlatdı, deyirdi ki, buna görə öləcəm və cəhənnəmdə yanacam. Mənə Qurandan düzəlməyim üçün surələr oxudurdu. O psixoloq məni özümə nifrət etdirdi. Onunla söhbətə başlayandan sonra davamlı olaraq özümə zərər vurmağa başladım. İntihara da cəhd etdim". (Y.L. biseksual qız)*[24]

Nəticə olaraq, dövlət orqanları tərəfindən yuxarıda sadalanan problemlərin həll olması ilə bağlı addımlar atılmadığına, cinsi orientasiya və gender kimliyinə yönəlik ayrı-seçkilik haqqında

---

[22]LGBTI+ fərdi ilə müsahibə, https://dignityandgender.wordpress.com/2018/12/27/o-psixoloq-m%C9%99ni-ozum%C9%99-nifr%C9%99t-etdirdi-m%C9%99n-%C9%99min-idim-ki-buna-gor%C9%99-ol%C9%99c%C9%99m-v%C9%99-c%C9%99h%C9%99nn%C9%99md%C9%99-yanacam/

[23] https://jam-news.net/avropanin-%C9%99n-homofob-olk%C9%99sind%C9%99-geyl%C9%99r-nec%C9%99-sag-qala-bil%C9%99r/?lang=az-AZ

[24] Eynisi

qanun, qısnama ilə bağlı mövcud siyasət olmadığına görə, təhsil müəssilərində LGBTI+ şagird və tələbələri təhlükəsiz mühitdə bərabər təhsil imkanlardan yararlana bilmirlər.

## 1.5 Məşğulluq

Konstitusiyada, eləcə də "Gender bərabərliyinin təminatları qaqqında" Qanunda, Əmək Məcəlləsində və bir sıra digər qanunlar nəzərdə tutulan ümumi ayrı-seçkiliyin qadağası prinsipi, məşğulluğun bütün aspektlərinə tətbiq edilir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 16-cı maddəsində müxtəlif əsaslı ayrı-seçkilik, o cümlədən milli, cinsi, irqi, dini, vətəndaşlığa, dilə və s. görə ayrı-seçkiliyin növləri qadağan olunsa da, cinsi oriyentasiya və gender kimliyinə görə ayrı-seçkilik Əmək Məcəlləsi ilə birbaşa qadağan olunmur. [25] Lakin işə müraciət mərhələlərində cinsi oriyentasiyaya görə ayrı-seçkilik hallarına gəldikdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, cənab Səlim Müslümov qeyd edib: '*Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində cinsi azlıqlarla əlaqədar heç bir məhdudiyyət nəzərdə tutulmayıb və iş müsahibələri zamanı heç kim şəxsin cinsi oriyentasiyası haqqında sual vermir.*'[26].

Lakin cinsi oriyentasiya ayrı-seçkilik əleyhinə əsaslardan biri olmadığı üçün LGBTI+ fərdlərinin məşğulluq sahəsində ayrı-seçkilikdən xüsusi qorunması yoxdur. ABŞ Dövlət Departamenti Azərbaycanla bağlı 2017 ci il hesabatında qeyd edib ki, cinsi oriyentasiyaya görə iş yerlərlərində bir çox ayrı-seçkilik halları baş verir. İş yeri sahibləri LGBTI+ fərdlərini qanunvericilliyə uyğun olaraq cinsi oriyentasiyaya görə işdən çıxarda bilmədikləri üçün başqa əsaslar axtarır və yaradırlar.[27]

Homoseksual şəxslər iş tapa bilmədikləri və ailələrinin maddi dəstəyindən də məhrum olduqları üçün bəzi hallarda həyatlarını davam etdirmək üçün seks işçiliyi ilə məşğul olmağa məcbur qalırlar. Bu məcburiyyəti homoseksual şəxs öz anonim müsahibəsində belə ifadə edir:

"*Bir dəfə məcbur olub özümü satmışam və bu mənim həyatımda yaşadığım ən dözülməz an idi. Bakıdaydım, işim yoxuydu və gündə bir dəfə dönər yeyirdim, sadəcə bir dəfə. Gündə bir dəfə yemək mənə bəs edirdi. Bir gün elə vaxt gəldi ki, heç pulum qalmadı və mən iki gün ac qaldım. 3-cü gün artıq dözə bilmədim və məcbur oldum özümü satmağa. Ondan sonra o qədər*

---

[25] Azərbaycan Respublikasının Əmək Məcəlləsi
http://www.e-qanun.az/code/7
[26] http://qafqazinfo.az/news/detail/azerbaycanda-ise-goturulerken-cinsi-oriyentasiya-sorusulmur-187249
[27] https://www.state.gov/documents/organization/277385.pdf

*iyrənirdim ki, özümdən, güzgüdə üzümə baxa bilmirdim. Həyatda insanın özünü satmağından daha iyrənc bir şey ola bilər? Bir insanın məncə düşə biləcəyi ən son məqam odur. O qədər peşman oldum ki sonralar. Kaş heç vaxt yaşamazdım bunu. Kaş başqa yol tapsaydım. Kaş elə acından ölsəydim"(O.G. homoseksual oğlan).*[28]

Transseksual şəxslər isə bu mövzuda hüquqi çərçivədə hər hansı bir müdafiədən isə tamamilə məhrumdurlar. Cinsiyyət dəyişdirmə əməliyyatının və hormon müalicəsinin ölkədə demək olar ki, mövcud olmaması və rəsmi sənədləri dəyişdirməkdə mövcud çətinlik və süründürməçilik halları transgender şəxslərin iş imkanlarını xeyli məhdudlaşdırır. Beləliklə də, real həyatda həmin şəxslər rəsmi sənədlərdən fərqli göründükləri üçün özlərinə rəsmi iş yerləri tapa bilmirlər. Buna görə də həyat fəaliyyətlərini davam etdirmək üçün seks işçiliyi ilə məşğul olmağa bir növ məcbur qalırlar. Bu da cəmiyyətdə onlara qarşı qərəz və streotip yaranması ilə nəticələnir.

Digər LGBTI+ üzvü isə qeyd edir: *"Əsasən transgenderlərlə bağlı belə bir sterotip var ki, hamısı seks işçisidir. Doğrudan da, onların böyük əksəriyyəti seks işçiliyi ilə məşğul olur. Başqa seçimləri yoxdur, çünki ciddi qəbul etmirlər, iş vermirlər. İşəgötürənlərin fikrincə, onların çox yaxşı iş təcrübələri, universitet dərəcələri ola bilər, amma trans olmaları, onları iş pozisiyalarına yararsız edir"( A. M. homokesual oğlan )* [29]

### 1.6 Cinsiyyət dəyişdirmə əməliyyatı və şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi

Transgender şəxslər Azərbaycanda ən çox ayrı-seçkiliyə məruz qalan həssas qruplardır. Bu ayrı-seçkilik özünü cəmiyyətdə, məktəbdə, universitetdə, işdə, küçədə, xəstəxanada, nəqliyyatda - hər yerdə göstərir.

Transgender şəxslərlə müsahibələrə əsasən, onlar 3-cü cins barədə məlumatları yerli dildə resurslar olmadığına görə, xarici dillərdə oxumağı başa düşdükdən sonra əldə ediblər. Bəzilərində bu yeniyətməliyin son dövrlərinə, bəzilərində isə erkən 20-li yaşlarına təsadüf edir. Müraciət etdikləri əksəriyyət psixoloq və psixiatrların "transgenderizm" haqqında anlayışları

---

[28] "Onlara başa salmaq istəyirəm ki, homoseksuallıq fahişəlik deyil". Mənbə: Ləyaqət və Gender https://dignityandgender.wordpress.com/2018/11/28/m%C9%99n-sad%C9%99c%C9%99-onlara-basa-salmaq-ist%C9%99yir%C9%99m-ki-homoseksualliq-fahis%C9%99lik-deyil-%EF%BB%BF/

[29] "Mən barmaqlarımı heç kimə göstərməyəcəyəm, yoxsa bilərlər". Mənbə: Ləyaqət və Gender https://dignityandgender.wordpress.com/2019/04/01/ay-da-m%C9%99n-barmaqlarimi-hec-kim%C9%99-gost%C9%99rm%C9%99y%C9%99c%C9%99y%C9%99m-yoxsa-bil%C9%99rl%C9%99r/

olmadığına görə onlar uzun müddət özlərini lesbiyan, gey, biseksual və ya psixi xəstə hesab ediblər.

Transgender şəxslərlə müsahibələrə əsasən, daha ciddi problemlər onların öz cinsi oriyentasiyaları barədə əmin olduqdan sonra başlayır. Səhiyyə Nazirliyinin bu sahədə hər hansı maarifləndirmə proqramları və qanunvericilikdə mövcud nizamlamalar olmadığına görə transgender şəxslər ayrı-seçkiliyə məruz qalaraq, müvafiq tibbi xidmətdən yararlana bilmirlər.

Azərbaycan Respubublikasının qanunvericiliyində cins dəyişdirilməsi ilə bağlı hər hansı tənzimləyici və ya qadağanedici norma yoxdur. Milli Məclisin deputatı Musa Quliyev qeyd edir ki, ölkədə cinsini dəyişmək istəyənlərin sayı çox olmadığına görə və mentalitetimizə, milli-mənəvi dəyərlərimizə zidd olduğuna görə bu məsələnin Milli Məclisdə müzakirəsinə ehtiyac duyulmayıb[30].

Bu sahədə yeganə qüvvədə olan qanun "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunudur[31]. Lakin transplantasiya əməliyyatları arasında cinsin dəyişdirilməsi barədə hər hansı müddəa yoxdur. Qanunla qadağan olunmamasına baxmayaraq, cins dəyişdirilmə əməliyyatlarının harada, necə, nə şəkildə keçirilməli olduğu və hansı prosedurlardan keçirilməli olduğu barədə məsələlər tənzimlənməyib.

Ölkədə hormon müalicəsi və cins dəyişdirmə əməliyyatları demək olar ki, mövcud deyil, yaxud çox istisna hallarda həyata keçirilir. Öz hiss etdikləri gender kimliklərində rahat ola bilmələri üçün transgenderlərin böyük əksəriyyəti uzun illər hormon müalicəsi qəbul edir. Lakin Azərbaycanda tibb işçiləri arasında bu sahədə biliklər olmadığına görə onlar müvafiq məsəhət və müalicə almaqdan məhrum olurlar və onlar tərəfindən "mental xəstə" diaqnozu ilə qiymətləndirilirlər.

Transgender şəxslərlə müsahibələrə əsasən, endokrinoloqların böyük əksəriyyəti hormonlarla bağlı uyğun testləri etməkdən imtina edir və bunun hüquqi olmadığını qeyd edirlər. Bəziləri isə ailənin icazəsini tələb edir. Transgender şəxslər uyğun dozanı bilmədən qeyri-leqal yollarla tapılmış hormonlardan istifadə edirlər ki, bu onların sağlamlıqlarını təhlükə altına qoyur. Bəzən onlar uyğun endokrinoloq tapa bilsələr də, leqal yollarla hormon tapa bilmirlər. İran, Türkiyə, Gürcüstan kimi xarici ölkələrdən, və yaxud idmançılardan əldə edirlər.

---

[30] Millət vəkili: "Qanunvericilikdə cinsdəyişmə ilə bağlı konkret norma yoxdur" , http://modern.az/az/news/36765
[31] "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/alpidata/framework/data/22/f_22570.htm

*“Mən testestoren hormonu qəbul etməli idim, araşdırdım ki, bunu necə qəbul edə bilərəm. Həkim axtardım, o mənim hormonlarımı ölçməli, ona uyğun dozanı müəyyən etməli idi. Həkimlər bunu boynuna götürmədi, dedilər ki, cinsiyyəti dəyişməyə məhkəmə qərarı ilə icazə verilir. Məhkəmə qərarını almaq üçün isə neçə yaşın olur-olsun, ailəndən icazə kağızı almalısan. Mən heç bir şəkildə bunu ailəmə deyə bilməzdim, beləliklə, mən hormon qəbul edə bilmədim”*[32] *(A.T. transekssual şəxs)*

Tibb müəssislərində, klinikalarda tam cins dəyişdirmə əməliyyatlarının keçirilib-keçirilmədiyi barədə dəqiq məlumat yoxdur. Müsahibələrə əsasən, onlar daha çox Türkiyə, İran, Gürcüstan kimi qonşu ölkələrə üz tuturlar.

Xaricdə hormon müalicə və cinsdəyişdirmə əməliyyatları edən şəxslər sərhəddə problemlərlə qarşılaşsalar da, ölkəyə buraxılırlar.

Eyni zamanda, Azərbaycan Respublikasının qanunlarında transgenderlərin şəxsiyyət vəsiqələrində və digər rəsmi sənədlərində cinsiyyətlərini dəyişdirməkləri ilə bağlı heç bir hüquqi mexanizm yoxdur. Buna görə, transgender şəxslər öz görünüşləri və gender kimlikləri ilə uzlaşmayan sənədlər daşıyırlar.

Şəxsiyyət vəsiqələrində cinsini dəyişməklə bağlı hər hansı rəsmi dövlət statistikası yoxdur. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanunun 4-cü maddəsinə əsasən, şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitdikdə, yaxud vətəndaşın soyadı, adı, atasının adı dəyişdikdə və ya şəxsiyyət vəsiqəsi, o cümlədən onun elektron daşıyıcısı (çip) yararsız hala düşdükdə, yaxud vəsiqənin üzərindəki məlumatların səhv olduğu müəyyənləşdirildikdə, şəxsiyyət VVAQ orqanlarına müraciət etməklə dəyişdirilməsinə icazə verilir.[33] Lakin qanunda şəxsin cins qeydinin dəyişdirilməsi ilə bağlı hər hansı müddəa yoxdur. Praktikaya əsasən, məcburi qısırlaşdırma və cins dəyişdirmə əməliyyatı şəxsiyyət vəsiqələrində dəyişikliklərin əsas tələbi kimi göstərilir.

Məcburi qısırlaşdırma və cins dəyişdirmə əməliyyatlar transgender şəxslərin hüquqlarını pozur. Eyni zamanda bütün transgender şəxslər hormon müalicəsi və ya cinsiyyət dəyişdirmə əməliyyatları etməyi arzulamırlar.

---

[32] “Beyin gücümlə menstruasiyamı saxladım”. Mənbə: Ləyaqət və Genderhttps://minorityaze.org/49-guzgulere-nifret-edirdim-cunki-baxanda-ozumu-gorurdum

[33] . Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında Azərbaycan Respublikasının Qanunu , http://www.e-qanun.az/framework/9009

Mövcud qanunvericilikdə rəsmi sənədlərdə transgender şəxslərin cins işarələrini dəyişdirdirə bilməməsi onlara həyatın bütün sferalarında çətinliklər yaradır və ayrı-seçikilik hallarında hüquqi çərçivədə müdafiələrdən məhrum edir.

### 1.7 Hərbi xidmət

Hərbi xidmət Azərbaycan Respublikasının Konstitusiyası[34] və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu[35] ilə tənzimlənir.

Hərbi xidmət haqqında qanuna görə, müddətli həqiqi hərbi xidmətdən keçmək hər bir kişi cinsinə məxsus olan şəxs üçün məcburidir. Hərbi xidmətə çağırış zamanı daha çox "soruşma və söyləmə prinsipi"nə əməl olunsa da, praktikada homoseksuallar hərbi xidmətdən azaddırlar. Lakin qanunvericilikdə homoseksuallara münasibətdə, seksual orientasiya ilə bağlı hər hansı norma olmadığına görə, hərbi xidmət yaşına çatdıqları zaman onlar hansı addımı atmalı olduqlarını bilmirlər.

*"Bölgələdən birində yaşayıram, qeydiyyatım rayonumuzadır. Universiteti bitirdikdən sonra hərbi xidmətə çağırılacam. Hansı addımı atacağamı bilmirəm. Maskulin kişilərin hərbi xidmət zamanı fiziki şiddətə məruz qalmaq şansı bir dəfədirsə, feminin kişilərdə fiziki şiddətlə birlikdə cinsi zorakılıq şansı da yüksəkdir. Ailəm homoseksual olduğumu bilmir. Bizim rayon balacadır, qorxuram ki, Hərbi Komissarlıqda bunu etiraf etsəm, onlar ailəmə xəbər verərlər". (A.S. homoseksual oğlan)*[36]

Müsahibələrə əsasən, homoseksual kişilər "hərbi xidmətə yararsız" hesab edilərək, hərbi bilet almaq üçün müraciət etdikdə 17 b və 18 b maddələri ilə hərbi xidmətdən saxlanırlar. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi "Hərbi həkim ekspertizası haqqında" Əsasnamənin 17-ci maddəsi reaktiv psixozlar və nevrotik pozulmalar, 18-ci maddəsi isə şəxsiyyət pozulmalarını tənzimləyir[37].

---

[34] Azərbaycan Respublikasının Konstitutsiyası, http://www.e-qanun.az/framework/897

[35] "Hərbi Vəzifə və Hərbi Xidmət Haqqında" Azərbaycan Respublikasının qanunu, http://www.e-qanun.az/framework/23021

[36] LGBTI+ fərdi ilə müsahibədən, 7 noyabr

[37] "Hərbi Həkim Ekspertizası Haqqında Əsasnamənin" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarı, http://www.e-qanun.az/alpidata/framework/data/0/f_884.htm

*“18 yaşım tamam olanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə çağırıldım. Əvvəlcə Tibbi Komissiyadan sonra isə Psixiatr müayinəsindən keçməyə yönləndirildim. Səfərbərlik xidmətində öyrəndim ki psixiatrla aramızda olan danışıqlar 3-cü şəxsə açıqlanmır. Mən qərara gədim ki, psixiatra öz orientasiyam barədə bildirim. Onunla aramızda kiçik bir danışıq oldu. O mənə məlumat verdi ki, bu halda heç nədən çəkinmədən danışmaq lazımdır, çünki gələcəkdə, hərbi xidmət zamanı orientasiyaları bəlli olarsa, şiddət, zorlama, şantaj, intihara sürükləmək kimi bir çox problemlərlə qarşılaşa bilərlər. Psixitar mənə 2 saylı nevroloji xəstəxanaya göstəriş verdi. Xəstəxana Komissiyasına orientasiyamı açıqladıqdan sonra, 17 b maddəsi ilə 3 illik möhlət aldım, və bildirdilər ki, hər dəfə yenidən möhlət alacam. Baxmyaraq ki, 17 b-nin cinsi orientasiya ilə heç bir əlaqəsi yoxdur. “ (R.T. homoseksual oğlan)*[38]

*“Hərbi xidmətin 6-cı ayında briqada komandirinə gey olduğumu dedim. Məni Bakıya, Hərbi hospitalın psixiatriya şöbəsinə göndərdilər. 18 b- yüngül psixoloji pozğunluq ilə tərxis etdilər. Hərbi xidmətə getmədən də 18 maddəsi ilə hərbi xidməti saxlatdırmaq mümkündür. Baxmayaraq ki, bu maddənin homoseksuallığa heç bir aidiyyəti yoxdur.” (I.H. homoseksual oğlan)*[39]

Homoseksuallıq 1994-cü ildə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Xəstəliklərin Beynəlxalq Təsnifatından çıxarılmışdır və artıq psixi xəstəlik kimi təsnif edilmir.

Nəticə olaraq, homoseksual kişilərin hərbi biletində psixoloji xəstə (17b və 18) yazılması onların əmək bazarına çıxışını xeyli çətinləşdirir. Onlar məşğulluq sahəsində bərabər imkanlardan məhrum olunurlar.

### 1.8 Ailə institutu və “Kaming aut”

Əksər postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da homoseksualizm ətrafında qarışıqlıq olan bir məsələdir. Azərbaycanda homoseksuallığın psixoloji, sosioloji və hüquqi aspektləri haqqında obyektiv və düzgün məlumat yoxdur, çünki cəmiyyətdə homoseksualizm haqqında düzgün anlayış mövcud deyil. [40] Gey, lezbiyan, biseksual və transgender olaraq “Kaminq out” çox nadir halda baş verir, LGBTI+ şəxslər bunun verə biləcəyi nəticələrdən

[38] LGBTI+ fərdi ilə müsahibədən, 27noyabr
[39] LGBTI+ fərdi ilə müsahibədən, 28 fevral
[40] https://www.refworld.org/country,COI,,ANNUALREPORT,AZE,,469242755,0.html

qorxurlar. Nəticə olaraq belə insanlar ikili həyat sürməyə məcbur olub, LGBTI+ üzvü olduqlarından utanırlar.

Azərbaycanda ailə institutu, dəyərlərə bağlılıq çox güclüdür. Cəmiyyətin insanlar üçün biçdiyi davranış formaları, sosial normalar var ki, bunlardan kənara çıxmaq psixi, fiziki, iqtisadi şiddətlə nəticələnə bilər. Ailə institutu bu qaydalara əməl olunmasına nəzarəti həyata keçirir.

LGBTI+ fərdləri ilə müsahibələrə əsasən, bəziləri ailələrini uzun müddət öz cinsi kimliklərini etiraf etmək üçün hazırlasalar da, digərləri ailələri tərəfindən baş verə biləcək təhlükələrin qarşısını almaq üçün öz maddi müstəqilliklərini təmin etdikdən sonra ayrı evdə yaşamağa və xarici ölkələrə köçməyə üz tuturlar.

*"Geyim tərzimi və saçlarımın formasını dəyişdirdikdən sonra anam məndən bir neçə dəfə soruşub ki, "sən cinsini dəyişdirmək istəyirsən?". Onlarda elə bir işıq görsəydim, mən onlara izah edərdim. Onlar mənə deyiblər ki, sən bizim çöldə adımızı batırmağındansa, dəlilik kağızı alarıq, dəlixanaya tıxarıq, bilərik ki, sağsan, adımızı da batırmırsan. O təhditlər gəldiyinə görə bilirəm ki, heç vaxt deyə bilməyəcəm"*[41]*. (G.H., transgender qadın)*

Mövcud təhlükələri önləmək üçün bəzi transgenderlər və homoseksuallar ikili həyat yaşayırlar.

*"Bir dəfə anama sual vermişdim ki, mən, yaxud qardaşım homoseksual olsa, neyləyərsən? Cavab vermişdi ki, özümü yandıraram".*[42] (A.N. , homoseksual oğlan)

Lesbiyan və biseksual qadınlar daha çox görünməz qala bilsələr də, müəyyən yaşdan sonra onlardan da evlənmək tələb olunur.

*"Mən qadınlara qarşı hislərimin olduğunu bilirdim, buna görə ayrı evə çıxmaq, başqa ölkəyə köçmək istəyirdim. Bu isə mənim ailəmdə qəbuledilməz idi. Universiteti bitirdikdən atama getmək istədiyimi dedikdə tüfəngini əlinə aldı, dedi "bu evdən ya gəlinliklə, ya da kəfəndə çıxassan. Yoxsa ananı da, səni də vurub basdıracam, heç kimin də xəbəri olmayacaq". Mən məcburən bir nəfər tapdım, və 3-4 ayın içərisində kağız üzərində evləndik. Evləndikdən sonra*

---

[41] "Beyin gücümlə menstruasiyamı saxladım". Mənbə: Ləyaqət və Gender https://minorityaze.org/49-guzgulere-nifret-edirdim-cunki-baxanda-ozumu-gorurdum
[42] LGBTI+ https://dignityandgender.wordpress.com/2018/12/16/bir-d%C9%99f%C9%99-anama-sual-vermisdim-ki-m%C9%99n-yaxud-qardasim-homoseksual-olsa-neyl%C9%99y%C9%99rs%C9%99n-cavab-vermisdi-ki-ozumu-yandiraram/

*artıq atamın mənimlə işi olmadı. Mən bir müddətdən sonra həmin adamdan ayrılıb xaricə köçdüm”. (*R.T. lezbiyan qadın)[43]

LGBTI+ fərdləri ilə müsahibələrə əsasən, bəzilərinin “Kaming aut” hekayələri ailə üzvlərinin şiddəti, sosial imtina, məcburi evlilik və normallaşdırma yəni məcburi müalicə ilə nəticələnib. Ailə və cəmiyyət tərəfindən qəbul olunmama LGBTI+ fərdlərində dərin psixoloji problemlərə, ağır depressiyalara və intihar hallarına qədər gətirir.

*“İntihar etmək üçün özümü dənizə atdım. 3 gün xəstəxanada qaldım. Rəngli saşlarım vardı. 3 gün sonra evə gedəndə anam boya alıb gətirdi, saçımı rənglədi, sonra atam evə gəldi. Mən düşündüm ki, o gün ölsəydim belə, saçımın rəngini dəyişib basdıracaqdılar. Atam heç məndən soruşmadı ki, niyə bu baş verib”[44]. (E.L., panseksual oğlan)*

LGBTI+-yə qarşı real cəmiyyətin real münasibətini “Minority” jurnalının keçirdiyi video-sorğu da xəbər verə bilər: “Övladınızın gey olduğu məlum olsa, nə edərdiniz?” sualına insanların əksəriyyəti “axı biz müsəlmanıq, xristian ölkələrindən fərqlənməliyik”, “övladlıqdan rədd edərdim”, “öldürərdim”, “düzgün yola çəkərdim” kimi cavablar verib. Çox az hissəsi, əsasən də gənclər isə “necə istəyir, yaşasın”, “gey dostlarım var, dəhşətli heç nə görmürəm” deyərək cavablandırıb.

Respondentlərin əksəriyyəti əmindir ki, onların başına belə bir iş gəlməyəcək. Amma istənilən halda övladını dəstəkləməyə hazır olanlar da az deyil.

Sorğu cəmiyyətdə indiyə qədər də hökm sürən möhkəm stereotipdən xəbər verir: bu gün Azərbaycanda homoseksuallıq artıq “xəstəlik” deyil, amma “düzgün tərbiyə” ilə nəzarət oluna biləcək “əxlaqsızlıqdır”. Nəzərə almaq lazımdır ki, sorğu şəhərin mərkəzində aparılıb. Şəhərin kənarlarında və Azərbaycanın əyalətlərində nəticə xeyli daha radikal ola bilərdi.[45]

---

[43] LGBTI+ fərdi ilə müsahibədən, 5 fevral
[44] “Bu Tanrının lənətidir yoxsa mənim uğurumdur?.” Mənbə: Ləyaqət və Gender https://dignityandgender.wordpress.com/2018/12/09/bu-tanrinin-l%C9%99n%C9%99tidir-yoxsa-m%C9%99nim-ugurumdur/
[45] https://minorityaze.org/26-ovladiniz-gey-lezbiyan-olsa-idi-ne-ederdiniz

# II FƏSİL

## Praktikadakı hadisələr və beynəlxalq təşkilatların tövsiyələri

### 2.1 İsa Şahmarlının intiharı

2014 -cü ilin yanvarında Azad LGBTI+ adlı təşkilatını rəhbəri İsa Şahmarlı özünü Göy qurşağı bayrağından asaraq intihar etmişdir. İntihar vaxtı işsiz və borclu olan İsa onu "xəstə" hesab edən ailəsindən də uzaqlaşmışdı[46]. Öz şəxsi "Facebook" hesabında ölümündən qabaq mesaj yazmış İsa cəmiyyəti ölümündə günahkar elan edirdi, onun mesajı isə ölümündən sonra dostları tərəfindən aşkarlanmışdı. Dostları iddia edib ki, Şahmarlı cinsi mənsubiyyətinə görə ailəsinin qınağıyla üzləşirdi.

*"Ailəsilə problemləri var idi, evdən qovulmuşdu 1 il idi. Son statusundan da görünür. Anası onu sıxışdırırdı, "üz qarası" deyirdi, atası ilə isə hər şeyin üstü açılandan sonra danışmırdı"*[47].

Ailəsi isə bu ittihamları yalan olduğunu qeyd edib. Eyni zamanda onun dəfn mərasiminə gələn LGBTI+ fərdi dostlarını "İsanı siz pozdunuz, gey elədiniz, kəndin adını batırıb o" deyərək mərasimdən qovub. [48]

İsanın qrup yoldaşlarının paylaşdıqlarına görə, o bir neçə dəfə təhsil aldığı universitetdə daha yuxarı qruplar və onun gey olduğunu bilərək, universitetə onu döyməyə gələn şəxslərin zorakılığı ilə qarşılaşıb. Təhlükələrdən onu qoruya bilmək üçün qrup yoldaşları İsanı universitetin pəncərələrindən və arxa qapılarından qaçırmağa çalışıblar. Beləliklə, İsa təhsilini də yarımçıq qoymaq məcburiyyətində qalmışdı. İsa cinsi mənsubiyyətinə görə həm ailəsinin, həm də cəmiyyətin qınağıyla üz-üzə qaldı[49].

[46] https://www.huffpost.com/entry/isa-shakhmarli-gay-activist-dead_n_4652416
[47] https://www.bbc.com/azeri/azerbaijan/2014/01/140122_LGBTI+_azerbaijan_suicide
[48] Eynisi
[49] İsanın qrup yoldaşı ilə intervyudan, 7 may

## 2.2 Sentyabr 2017-ci il reydləri (kollektiv həbslər)

Azərbaycanda LGBTI+ cəmiyyəti 2017-ci ilin sentyabrında dövlətin ağır təqib və təzyiqlərinə məruz qaldı. Həmin il hüquq-mühafizə orqanlarının həyata keçirdiyi kütləvi reydlər zamanı ən azı 200 nəfər həbs olunub. Zərərçəkənlər polis idarələrində onlara fiziki təzyiq göstərildiyini bildiriblər.[50]

Küçələrdə, evlərdə onlarla transgender və gey həbs edildi, bəziləri polis məmurları tərəfindən ağır şəkildə döyüldü.[51] Polis qanunsuz üsullarla ilk növbədə şəxslərin cinsi oriyentasiyasını öyrənməyə və daha sonra onları həbs etməyə başladı. Məsələn, sübutlar var ki, bir çox polis özünü homoseksual biri kimi qələmə verərək şəxslərə yaxınlaşır, bu şəkildə onların cinsi oriyentasiyası təsbit edildikdən sonra həmin şəxslər həbs edilirdi. Eyni zamanda sübutlar da var ki, LGBTI+ şəxslərin dövlət orqanların əgər digər şəxslərin adlarını demədikləri halda onlara "ailənizə xəbər verəcəyik" deyə şantajlara məruz qaldıqlarını göstərir[52].

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu kollektiv həbs və həbsləri məcburi insan immun çatışmazlığı virusu (QİÇS/AIDS) müayinələrinin aparılması zərurəti ilə əsaslandırdı. Bundan əlavə, 2017-ci ilin sentyabr ayının sonlarında bir neçə gün müddətində 100-dən çox adamın inzibati həbsə və məcburi AİDS müayinələrinə məruz qaldığı bildirildi. Lakin müayinədən keçən şəxslərin heç birində həmin virus aşkarlanmadı. Eyni zamanda bildirildi ki, bu hədəf həbslər buna məruz qalanların cinsi oriyentasiyası ilə bağlı yerli sakinlərin şikayətləri ilə başlamışdır.[53] Qeyd olundu ki, reydlər yerli vətəndaşlara və əcnəbi turistlərə pul müqabilində intim xidmətlər təklif edən, imtina edənləri təhqir edib münaqişəyə çəkməklə ictimai qaydanı pozan şəxslərin müəyyənləşdirilməsi, onların dəri-zöhrəvi xəstəliklərin daşıyıcısı olub-olmadığının yoxlanılması və digər profilaktik tədbirlərin görülməsi məqsədilə həyata keçirilib.[54]

Həbs olunan şəxslərə hüquq müdafiəsinin təşkilinə yardım edən Bakıda fəaliyyət göstərən hüquqşünas Səməd Rəhimli qeyd edib*: "LGBTI+ fərdlərinə qarşı əvvəllər də təzyiqlər*

---

[50] https://www.bbc.com/russian/features-41392231%20)
[51] https://www.azadliq.org/a/LGBTI+-gey-hucum/28796971.html
[52] https://oc-media.org/habslar-tahdid-va-tahqir/
[53] https://www.bbc.com/azeri/azerbaijan-41384843
[54] https://mia.gov.az/?%2Faz%2Fnews%2Fview%2F1136%2F

*olub, ancaq bu dəfəki təzyiq sistematik və geniş reydlərlə müşayiət olunaraq daha şiddətli idi. Hazırda həbsdə saxlanılan şəxslər polisin qanuni əmrlərinə tabe olmamaqla təqsirləndirilirlər. Bu, Azərbaycanda ixtiyari həbslərdə istifadə olunan ümumi ittihamdır."* [55]

Azərbaycanda LGBTI+ fərdlərinə qarşı həyata keçirilən davam edən silsilə inzibati həbslər haqqında xəbərlərlə və Avropa Şurasının insan haqları üzrə homissarı, xanım Nils Muiznieksin bəyanatı ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Daxili işlər naziri, cənab Ramil Usubov 83 LGBTI+ fərdi haqqında inzibati həbs haqqında qərar qəbul edildiyini etiraf edib, LGBTI+ fərdlərinin törətdiyi cinayət əməllərinə görə öz cinsi oriyentasiyalarını bəhanə gətirdikləri üçün qınayıb[56], və qeyd edib ki, Azərbaycanda LGBTI+ fərdlərinin vəziyyəti bir çox Avropa dövlətlərindəki vəziyyətdən heç də fərqlənmir.[57]. Lakin Nils Mujnieksin Azərbaycanın daxili işlər nazirinə məktubunda həbslərin saxlanılan şəxslərin cinsi orientasiyası və gender mənsubiyyətinə görə həyata keçirildiyi bildirib. Məktubda qeyd olunur ki, saxlanılan LGBTI+ fərdləri arasında az sayda cinsi xidmət göstərənlər olub. Onlardan digər gey dostları haqqında məlumatlar toplanıb və nəticədə onlar da saxlanılıb.[58]

Azərbaycandakı müxalifət partiyaları və insan hüquqları ilə məşğul olan qeyri-hökumət təşkilatının çoxu cəmiyyətin dəstəyini və öz reputasiyalarını itirməkdən qorxduqları üçün 2017-ci ilin sentyabrında bu kollektiv həbslər zamanı səssiz qaldılar.

Bununla bağlı tutulan şəxslərin 25-i Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) şikayət göndərdi. Bu ilin fevralında isə AİHM sentyabr reydlərində inzibati qaydada həbs olunan 25 nəfərin işi üzrə kommunikasiya başladı. Göndərilən şikayətlərdə ərizəçilərin Avropa İnsan Haqları Konvensiyasının (AİHK) işgəncələrin qadağan olunması, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, şəxsi həyat və ailə həyatına hörmət hüququ və ayrı-seçkiliyin qadağan olunmasına (3, 5, 6, 8, 14-cü maddələr) dair maddələrin pozulduğu qeyd olunur. [59]

---

[55] https://www.bbc.com/azeri/international-41438718
[56] http://news.lent.az/news/285798 (son giriş tarixi 25 yanvar 2018)
[57] http://qafqazinfo.az/news/detail/cinsi-azliqlar-oriyentasiyalarini-one-cekmekle-ramil-usubov-199763 (son giriş tarixi 25 yanvar 2018).
[58] https://rm.coe.int/letter-to-the-minister-of-interior-of-azerbaijan-concerning-recent-arr/168075de36
[59] https://hudoc.echr.coe.int/eng#{%22tabview%22:[%22document%22],%22itemid%22:[%22001-192028%22]}

## 2.3 Aprel 2018-ci il reydləri

Bakıda aprel ayının 1-də məlumatlara əsasən, minimum 14 LGBTI+ fərdi polis tərəfindən müxtəlif polis bölmələrinə aparılıb. Onlardan biri aldadılaraq, seks xidmətləri göstərməsi məqsədilə otelə dəvət olunub və orada polislər tərəfindən saxlanılıb. Qeyd olunub ki, polis İnternet şəbəkəsi vasitəsilə transgender şəxsləri "ovlamağa" çalışır. Saxlanılanlardan bəzilərinə müştəri adıyla zəng edilərək evlərə və hotellərə dəvət olunub, daha sonra qandallanaraq polis bölmələrinə aparılıblar. Onlardan ən azı bir neçəsi İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsinə (Xırda xuliqanlıq) əsasən cərimələnib. Həmçinin bəziləri isə İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsinə (Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmama) əsasən 10, 20 və 30 sutka həbs cəzası alıb. Eyni zamanda saxlanılan şəxslər məcburi tibbi müayinəyə göndərilib.[60] Vaşinqtonda yerləşən "Freedom House" beynəlxalq hüquq-müdafiə təşkilatı LGBTI+ fərdlərinə qarşı yeni təqib dalğasını pisləyərək qeyd edib: "*Freedom House Azərbaycan hökumətini LGBTI+ fərdlərinə qarşı yeni saxlanma dalğasına son qoyulmasına çağırır*".[61]

## 2.4 Beynəlxalq təşkilatların tövsiyələri

Azərbaycan Respublikası indiyə qədər bir çox beynəlxalq Sazişləri ratifikasiya etmişdir. Həmin Konvensiyalara aiddir: "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (1992) və onun Fakultətiv Protokolu (2001), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt (1992), Uşaq Hüquqları Konvensiyası (1992) , "Qadınlara qarşı bütün növ ayrı-seçkiliyin qadağan olunması haqqında" Konvensiya (1995) və onun Fakultativ Protokol (2001), "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya və onun Fakultativ Protokolu (2009) və "Əsas insan hüquq və azadlıqları haqqında" Avropa Konvesiyası daxildir. Azərbaycan tərəfi olduğu bu beynəlxalq müqavilələr milli qanunvericilik sisteminin əsas tərkib hissəsidir.

---

[60] https://minorityaze.org/198-tecili-xeber-bakida-polisin-LGBTI+q-ovu?fbclid=IwAR3zBN_dAJCikxSV5LPyD4Z41b9x560c9ailiTr7kREhXzo1557_jrwioYo
[61] https://www.amerikaninsesi.org/a/freedom-house-az%C9%99rbaycan-%C3%B6z-v%C9%99t%C9%99nda%C5%9Flar%C4%B1n%C4%B1n-h%C3%BCquqlar%C4%B1n%C4%B1n-pozulmas%C4%B1na-son-qoymal%C4%B1d%C4%B1r/4861469.html

Həmin beynəlxalq sənədlər onun iştirakçısı olan hər bir dövlətdən, onun yurisdiksiyası altında olan bütün şəxslərin orada qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dini, dili, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi və onların bu hüquqlarını təmin etməyı tələb edir.

15 noyabr 2016-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Komitəsi (İHK) Azərbaycan üzrə təqdim olunmuş dövri hesabata uyğun olaraq yekun mülahizələrini qəbul edib.[62] İHK Mülki və Siyasi Haqlara dair Beynəlxalq Sazişdə təsbit olunan bir çox hüquqlar, o cümlədən, həmin Sazişin 26-cı maddəsində əks olunan ayrı-seçkiliyin qadağan olunması hüququnun vəziyyəti haqqında öz narahatlıqlarını və tövsiyələrini ifadə edib.

Bu problemlərə əsasən, İHK Azərbaycan üzrə qəbul etdiyi yekun mülahizələrində Azərbaycan tərəfinə yekun tövsiyələrini irəli sürüb. Həmin tövsiyələr bunlardır:

- Cinsi oriyentasiya və gender kimliyi əsaslı ayrı-seçkiliyin qadağan olunması hüququnun Azərbaycan Respublikasının ayrı-seçkiliyin qadağan olunmasına dair qanunvericiliyinə daxil edilməsi; bu tövsiyənin işığında, tərəf dövlət, yəni Azərbaycan Respublikası təkcə ayrı-seçkiliyi qadağan qanunvericilikdə adekvat və səmərəli mühafizəni nəzərdə tutmamalı, eyni zamanda belə mühafizəni praktikada cinsi oriyentasiyası və gender kimliyinə görə ayrı-seçkilik, nifrət nitqi və zorakılıqla üzləşən şəxslər üçün təmin etməlidir.
- Belə əsasla törədilən ayrı-seçkilik, nifrət nitqi və zorakılıq hallarının müvafiq qaydada araşdırılması və həmin hərəkətlərə görə təqsirli şəxslərin məsuliyyətə cəlb olunması.
- Praktikada, LGBTI+ fərdlərinin və onların müdafiəçilərinin ifadə azadlığının təmin olunması;
- Praktikada, LGBTI+ fərdlərinin dinc toplaşma azadlığının həyata keçməsinin təmin olunması.

Eyni zamanda da 2018-ci ilin may ayında BMT-nin Universal Dövri İcmal (UDİ) üzrə işçi qrupunun 30-cu sessiyası çərçivəsində Azərbaycan Respublikasının milli məruzəsinə

[62] http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CCPR%2fC%2fAZE%2fCO%2f4&Lang=en

baxılan zaman Cinsi Orientasiya, Gender Kimliyi və İfadəsi və Cins Xüsusiyyətləri ilə bağlı verilən tövsiyələr Azərbaycan tərəfindən nəzərdən keçirilərək diqqətə alınmışdır. Bu zaman Azərbaycan Respublikasına Kanada, Çili, Kosta Rika, Honduras, İslandiya, İspaniya və Meksika dövlətləri tərəfindən ümumlikdə 8 tövsiyə verilmişdir.[63] Kanada Azərbaycana LGBTI+ fərdlərinin mühafizəsinin gücləndirilməsini tövsiyə edib. Bundan başqa, Azərbaycan tərəfinin İnsan Haqları Şurasının 39-cu sessiyasından gec olmamaq şərtilə, Argentina, Honduras, Meksika və Kanadanın LGBTI+ fərdlərinə qarşı ayrı-seçkiliyin və zorakılığın qarşısının alınması haqqında tövsiyələrinə, Çili, Meksika və İslandiyanın cinsi oriyentasiya və gender kimliyi əsaslı ayrı-seçkiliyi birbaşa qadağan edən qanunvericilik bazasının hazırlanması haqqında tövsiyəsinə, Kosta Rika və İspaniyanın LGBTI+ fərdlərinə qarşı həyata keçirilən işgəncə və qeyri-insani rəftar hallarının aradan qaldırılması və polis işçilərinin maarifləndirilməsi, o cümlədən LGBTI+ fərdlərinin sosial inteqrasiyasının təmin edilməsi haqqında tövsiyələrinə cavabları gözlənilir.

[63] http://unazerbaijan.org/wp-content/uploads/2018/12/Universal-D%C3%B6vri-%C4%B0cmal_-Az%C9%99rbaycan-2018.pdf

# NƏTİCƏ

Azərbaycan Respublikasında LGBTI+ fərdlərinin hüquqlarının vəziyyəti, xüsusilə son dörd il ərzində Azərbaycan əhalisinin bir çox insan haqları və azadlıqlarına qarşı törədilən repressiyaların fonunda daha da şiddətlənib. Buna səbəb kimi bir çox əsaslar göstərilə bilər.

İlk olaraq, Azərbaycan Respublikasının mövcud daxili qanunvericiliyində LGBTI+ fərdlərinin ayrı-seçkilikdən qorunması haqqında heç bir müddəanın olamaması bu məsələ ilə bağlı ən böyük problemlərdən biridir.. Yalnız 10 oktyabr 2006-cı il tarixində qəbul edilmiş "Gender bərabərliyinin təminatları haqqında" Qanunda gender bərabərliyi haqqında danışılır, lakin bu da yanlız kişi və qadın cinsinə mənsub olanlar arasındakı bərabərliklə məhdudlaşır.

Bundan əlavə, Azərbaycanda LGBTI+ cəmiyyəti hələ də birləşmək və ifadə azadlığından tam istifadə edə bilmirlər. Qeydiyyatdan keçmiş LGBTI+ qeyri-hökumət təşkilatı mövcud deyil. Eyni zamanda LGBTI+ üzvləri təhsil, məşğulluq, hərbi xidmət məsələlərində ciddi şəkildə diskriminasiya və ictimai qınaqla üzləşirlər. Transgender şəxslər ölkədə cinsiyyətlərini dəyişə bilmir və lazımi hormonal müalicəni almaq imkanından məhrumdurlar. Onlar şəxsiyyət vəsiqələrini dəyişməkdə də problem yaşadıqlar üçün iş imkanları xeyli dərəcədə məhduddur.

Hazırda dövlət tərəfindən isə LGBTI+ fərdlərinə qarşı təzyiqlər davam etdirilir. Onlar qanunsuz olaraq həbsə, zorakılığa və işgəncələrə məruz qalırlar. Geylərə qarşı (əsasən kişi seks işçilərinə) polis təzyiqləri olması haqqında çoxlu faktlar mövcuddur. Polis təzyiqindən şikayət edənlər isə sonradan polisin qisas almasından çəkinərək kimliklərinin gizli saxlayırlar.

Cəmiyyət içində isə tam maariflənmə yoxdur. Əksər post-sovet ölkələrində olduğu kimi, Azərbaycanda da homoseksualizm ətrafında qarışıqlıq olan bir məsələdir. Azərbaycanda homoseksuallığın psixoloji, sosioloji və hüquqi aspektləri haqqında obyektiv və düzgün məlumat yoxdur, çünki cəmiyyətdə homoseksualizm haqqında düzgün məlumat yoxdur. Məhz buna görə də LGBTI+ üzvlərinə qarşı həm ailə daxilində həm də cəmiyyətdə mövcud homofobiya, diskriminasiya və nifrət nitqi halları hər keçən gün daha da artır. "Kaminq out" isə çox nadir hallarda baş verir.

Nəticə olaraq, dövlət orqanları tərəfindən yuxarıda sadalanan problemlərin həll olması ilə bağlı addımlar atılmadığına, cinsi orientasiya və gender kimliyinə yönəlik ayrı-seçkilik haqqında qanun, qısnama ilə bağlı mövcud siyasət olmadığına görə LGBTI+ fərdləri ölkədə öz hüquq və azadlıqlarından tam şəkildə istifadə edə bilmirlər.

# TÖVSİYƏLƏR

1. Bu məsələ ilə bağlı hüquqi çərçivə yaradılmalı və Azərbaycan Respublikasının Konstitutsiyasının 25-ci maddəsinə tərəfdar çıxılan beynəlxalq müqavilələrə uyğun olaraq ayrı-seçkilik əsası kimi "və digər əsaslar" ifadəsi əlavə edilməlidir. Buna müvafiq olaraq digər qanunvericilik aktlarında da dəyişikliklər aparılmalıdır;

2. Cinayət Məcəlləsinin 61-ci maddəsində cinayəti ağırlaşdıran hallar arasına homofobiya və və transfobiya da əlavə olunmalıdır;

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin statistikasında "homofobiya və transfobiya ilə bağlı törədilən nifrət cinayətləri" deyə bir təsnifat aparılmalı, onların qeydiyyatı aparılmalıdır;

4. LGBTI+ qeyri-hökümət təşkilatlarının qeydiyyatı ilə bağlı problemlər həll olunmalı və belə alyansların üzərindəki təzyiqlər dayandırılmalıdır. LGBTI+ təşkilatlarının qanuni çərçivədə fəaliyyət göstərməsi üçün şərait yaradılmalıdır;

5. LGBTI+ fərdlərinin ifadə azadlığına gətirilən manəelər aradan qaldırlmalıdır;

6. LGBTI+ fərdlərinin tam məşğulluğunu təmin etmək üçün qanunvericilikdəki boşluqlar doldurulmalı və iş verənlərə bu mövzuda maarifləndirici tədbirlər həyata keçirilməlidir;

7. "Hərbi Həkim Ekspertizası Haqqında Əsasnamənin" 18-ci maddəsinin B bəndi dəyişdirilməli və Səhiyyə Nazirliyinin istifadə etdiyi Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi Xəstəliklərin Beynəlxalq Təsnifatına uyğunlaşdırılmalıdır. LGBTI+ fərldlərinin məcburi hərbi xidmətə gedib-getməməsi məsələsi onların hüquqları pozulmadan həll olunmalıdır;

8. Cinsiyyət dəyişdirmə əməliyyatınnın və hormon müalicəsinin necə, harada və nə şəkildə həyata keçirilməli olduğu və bu əməliyyatı keçirmək istəyənlərin hansı xüsusi proseduaralardan keçməli olduqları barədə məsələlər tənzimlənməlidir;

9. Təhsil Nazirliyi tərəfindən təsdiqlənən dövlət məktəblərinin dərs proqramı seksual təhsili və yaxud həyat bacarıqlarını əhatə etməlidir. LGBTI+ fərdlərinin müəllim və ya digər şagird heyəti tərəfindən ayrı-seçkiliyə məruz qalmaması, gender bərabərliyi, sülh və qeyri-zorakılığın təşviq edilməsi məqsədi ilə maarifləndirmə proqramları aparılmalı,

bu mövzuda müəllimlərin, məktəb psixoloqlarının və digər kadrların bilikləri artırılmalıdır;

10. Cəmiyyətdə və ailə daxilində LGBTI+ fərdlərinə qarşı yaranan streotip, homofobiya və nifrət niqti hallarının qarşısını almaq üçün mütəmadi olaraq maarifləndirici tədbirlər həyata keçirilməlidir;

11. Ümumilikdə isə LGBTI+ fərdlərinə qarşı dövlət tərəfindən aparılan təzyiq halları dayandırlmalı, onların pozulmuş hüquqları bərpa olunmalı, LGBTI+ hüquqları ilə əlaqədar milli strategiya planı ümümdövlət səviyyəsində qəbul edilməlidir.